AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

*Əlyazması hüququnda*

**GÜLNAR MÖVSÜM QIZI SEYIDOVA**

# ORTA ƏSR AZƏRBAYCAN KERAMİKA SƏNƏTİNDƏ DEKORUN İNKİŞAF PRİNSİPLƏRİ

Ixtisas: 6218.01 – "Dekorativ-tətbiqi sənət"

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Sevil Yusif qızı Sadıxova**
*sənətşünaslıq üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Arif Məmməd-Hüseyn oğlu Ələsgərov**
*Əməkdar rəssam, professor*

**Xədicə Vəli qızı Əsədova**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu**

Müdafiə "12" "iyun" 2017-ci il saat 14:00-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1029, Bakı şəh., Heydər Əliyev prospekti 26, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "12" "may" 2017-ci ildə göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Bütün sənət növlərinin yaranması və təşəkkülü ilk növbədə onların funksionallığı insan həyatında istifadəsi ilə bağlı olmuşdur. Müxtəlif sənət növlərinin yaradıcıları həmin məmulatları məişətində istifadə etmiş, tədricən onların forma-biçimini təkmilləşdirməklə yanaşı, zahiri görkəminə də bəzəklər əlavə etməyə başlamışlar. Bütün dünyada olduğu kimi bu proses Azərbaycanda da bu cür olmuşdur. Bu gün həyatımıza rəngarənglik bəxş edən Azərbaycan dekorativ-tətbiqi sənəti nümunələrinə, o cümlədən keramika məhsullarına olan danılmaz ehtiyacın kökündə heç şübhəsiz onların cəlbediciliyinə ciddi təsir göstərən dekor zənginliyi durur.

Əgər Azərbaycan keramika sənətinin çox-çox uzaqlara gedib çıxan tarixini xatırlamalı olsaq, onda onun müxtəlif əşyaların səthində yer alan dekorun sadədən mürəkkəbə doğru inkişaf etdiyini görərik. Bunun onları ərsəyə gətirən sənətkarların zövqü – estetik duyumu və bədii imkanları ilə bağlı olması birmənalıdır.

İlk mərhələdə özünü daha çox dulusçuluq məhsullarındakı cızmalarla təzahür etdirən dekor daşıyıcıları olan naxışlar, sənətin sonrakı inkişaf mərhələlərində özünü şirəsiz və şirəli saxsı qabların bəzək örtüyündə təzahür etdirmişdir. Həm əvvəllər, həm də müstəqillik dövründə arxeoloji qazıntılar zamanı üzə çıxarılan və bədii-estetik tutumu sənətşünaslıq baxımından tədqiq olunmayan keramik əşyaların qalıqları, eləcə də onların bizim günlərə gəlib çatmış nümunələrinin hər birində dövrün-insanın estetik idealının əks olunması ilə yanaşı, həm də özündə çeşidli istifadə məqsədindən qaynaqlanan məna-məzmun daşıyıcılığını ehtiva edir. Bunun əşyaların konstruktiv-plastik və dekorativ-ornamental tutumuna gözəlliklə yanaşı düşündürücülük bəxş etməsi birmənalıdır. Qənaətimizcə, bu dekorun əsasını təşkil edən sayagəlməz ornamentlərin – həndəsi və nəbati elementlərin, insan, heyvan və quş təsvirlərinin bədii tutumunda hifz olunan məna-məzmun daşıyıcılığı kifayət qədərdir. Bu isə Azərbaycan keramika sənətində önəmli yer tutan dekorun inkişafının, baş verən bədii evolyusiyanın sənətşünaslıq baxımından izlənilməsinin aktuallığını şərtləndirir.

**Mövzunun araşdırılma səviyyəsi.** Azərbaycan dekorativ-tətbiqi sənətinin tərkib hissəsi kimi bədii keramika da elmi cəhətdən tədqiq olunmuşdur. Bu tədqiqatların əksəriyyəti sovet dönəmində, bir qismi isə müstəqillik dövründə aparılmışdır. Əlavə edək ki, orta əsrlər bədii keramika nümunələrinin əksəriyyəti arxeoloji qazıntılar zamanı üzə çıxarıldığından, onlar bilavasitə tarixçi-arxeoloqların və tarixçi-etnoqrafların əsərlərində daha çox öz ixtisasları kontekstində tədqiq olunmuşlar.

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun respublikanın müxtəlif bölgələrində son illər apardığı arxeoloji qazıntıların nəticələri olaraq çap olunan kitab, albom və kataloqlarda orta əsrlərin keramika sənəti haqda geniş məlumat verilmişdir. Bu nəşrlərdə yer alan çoxsaylı faktoloji material arxeoloji və etnoqrafik baxımından təsnif və tədqiq olunmuşdur. Lakin burada da orta əsrlər Azərbaycan keramikasını əks etdirən zəngin material sənətşünaslıq baxımından araşdırılmamış, keramika nümunələrinin bədii-estetik özünəməxsusluğu, dekorun xüsusiyyətləri tədqiq edilməmişdir.

Azərbaycan keramika məmulatları haqqında ilk maraqlı və önəm kəsb edən məlumatlara İ.M.Cəfərzadə, E.A.Paxomov, F.Ə.İbrahimov, Ö.S.İsmizadə, T.Ə. Bünyadov, O.A.Əbibullayev, A.N.Mustafayev, A.Ş.Orucov, Q.İ.İone və b. tanınmış alimlərin işlərində rast gəlinir. Tədqiqatçı-arxeoloqlardan S.M. Ağamalıyeva, İ.A.Babayev, R.Əhmədov, Ə.İ.Novruzlu, Q.C.Cəbiyev, H.Ə.Ciddi, R.B.Göyüşov, Q.M.Əhmədov, T.M.Dostiyev və b. qazıntılar nəticəsində aşkar olunmuş keramika məmulatlarının öyrənilməsinə həsr olunmuş elmi əsərləri də layiqli tədqiqatlardır.

Bununla belə qeyd etmək lazımdır ki, həmin tədqiqatlarda yuxarıda vurğuladığımız kimi Azərbaycan keramika sənətinə sənətşünaslıq yanaşmasından daha çox, arxeoloq və etnoqraf münasibəti duyulur. Hər bir müəllifin araşdırmasında tədqiqat obyekti olan əşyaların dekorunu təşkil edən naxışlar fakt kimi vurğulansa da, əksər hallarda bu cür yanaşma təsvirin şərhindən uzağa getməyərək, daşıdıqları semantika və fəlsəfi tutum araşdırılmamışdır. Başqa sözlə desək, Azərbaycan keramika sənətinin beynəlxalq aləmdə tanınmasını şərtləndirən

dekorun bədii tutumunun zaman-zaman dəyişən inkişaf prinsiplərinin necəliyi əhatəli tədqiqat obyektinin materialına çevrilməmişdir.

Azərbaycanın bədii keramika sənəti tarixinin orta əsrlər dövrü bir-neçə müəllifin əsərində daha konkret araşdırılmışdır. N.N.Nəcəfovanın "XII-XV əsrlər Azərbaycan bədii keramikası"[1], Ə.İ.Novruzlunun "Azərbaycanın orta əsrlər keramikası (IX-XVII əsrlər)"[2], A.Ş.Orucovun "İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq (IV-VIII əsrərdə)"[3] və Q.M.Əhmədovun "Azərbaycanın şirəsiz saxsı məmulatı"[4] monoqrafiyaları bu qəbildəndir.

Görkəmli sənətşünas N.İ. Rzayevin "Qafqaz Albaniyasının bədii keramikası (e.ə. IV əsrdən b.e. I əsrinə kimi)" əsərinin tədqiqatımızla birbaşa bağlılığı olmasa da, adından da göründüyü kimi bu tədqiqat, toxunduğumuz məsələdə "sələf" rolunu oynaya biləcək məqamlarla kifayət qədər zəngindir.

Bundan əlavə Azərbaycan keramikasını milli incəsənət tariximizin tərkib hissəsi kimi tədqiq edən və onları kitab şəklində təqdim edən müxtəlif müəlliflər dünyanın və ölkəmizin nüfuzlu muzeylərində nümayiş olunan nümunələrin bədii-estetik xüsusiyyətlərindən ümumiləşdirilmiş şəkildə söz açmışlar. Başqa sözlə desək, bu kitablarda da Azərbaycan keramikasının orta əsrləri əhatə edən inkişaf mərhələsində müxtəlif məzmunlu dekorlarda baş verən üslub təkamülü, onları səciyyələndirən bədii xüsusiyyətlər xüsusi olaraq vurğulanmamışdır.

M.Tərlanov, R.Əfəndiyevin "Azərbaycan xalq yaradıcılığı nümunələri" (1960)[5], M.Tərlanovun "Декоративно-прикладное искусство Советского Азербайджана" (1968)[6], R.Əfəndinin "Azərbaycan dekorativ-tətbiqi sənətləri" (1976)[7], "Azərbaycan dekorativ-tətbiqi sənəti" (1999)[8], bundan başqa "Искусство

---

[1] Nəcəfova N.N. XII-XV əsrlər Azərbaycan bədii keramikası. Bakı: Elm, 1964.
[2] Novruzlu Ə.İ. Azərbaycan orta əsr sənətkarlığı. Bakı: Elm, 1993.
[3] Orucov A.Ş. Azərbaycanda erkən orta əsrlərdə dulusçuluq. Bakı: lm,1988.
[4] Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı: Elm, 1959.
[5] Tərlanov M., Əfəndiyev R,, Azərbaycan xalq yaradıcılığı nümunələri. Bakı: Azərnəşr, 1960.
[6] М.Тарланов. Декоративно-прикладное искусство Советского Азербайджана. Баку: Азернешр, 1968.
[7] Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri. Bakı: İşıq, 1976.
[8] Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənəti. Bakı: İşıq, 1999.

Азербайджана" (1976)[9], "Azərbaycan incəsənəti" (1977 və 1992)[10] kitabları bu qəbildəndir.

Tədqiqatçı-alim F.M. Əfəndinin 2002-ci ildə çap etdirdiyi "Художественные символы культуры турецких народов и древнего Азербайджана" kitabında[11] milli dekorativ-tətbiqi sənətimizdə rast gəlinən rəmzi təsvirlər və obrazlar haqqında ətraflı məlumat verilmiş, demək olar ki, bu sahədə uzun illər ərzində mövcud olmuş boşluğun doldurulmasına ciddi səy göstərilmişdir.

A.N.Aslanova tərəfindən müasir Azərbaycan keramikasına həsr olunmuş namizədlik dissertasiyasında[12] isə milli keramika sənətinin tarixinə çox qısa ekskurs edildiyindən orada orta əsr keramika sənətinə göstərilən münasibət də epizodik olmuş, dekorun inkişaf xüsusiyyətləri xüsusi olaraq şərh olunmamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi orta əsr Azərbaycan keramika məmulatlarının bədii tərtibatının əsasını təşkil edən dekorun, yəni, ornamental-təsviri motivlərin zənginliyini üzə çıxarmaq, onların təşəkkül və təkamül prinsiplərini müəyyənləşdirməkdən ibarətdir.

Bu məqsəddən çıxış edərək tədqiqatın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- orta əsr Azərbaycan keramika sənətində dekorun inkişaf prinsiplərini müəyyənləşdirmək;
- bədii keramika məmulatlarının yaradılmasında tətbiq edilən texnoloji üsulların səciyyəvi bədii xüsusiyyətlərini dəqiqləşdirmək;
- keramikada tətbiq edilən milli ornamentlərin – dekorativ-tətbiqi sənətimizə xas naxış və kompozisiya elementlərinin digər sənət növlərinin bəzək örtüyünü təşkil edən motivlərlə fərqli estetik tutumunu əsaslandırmaq;

---

[9] Бретаницкий Л.С.,Веймарн Б.В. Искусство Азербайджана. М.: Искусство, 1976.
[10] Azərbaycan incəsənəti. Bakı: İşıq,1992.
[11] Эфенди Ф. Эмблематика и символика в декоративно-прикладном искусстве Азербайджана. Баку: Нурлар, 2002.
[12] Aslanova Afət. Müasir Azərbaycan keramikası adlı namizədlik dissertasiyasının avtoreferatı. Bakı 2004.

- orta əsr şirəsiz keramika nümunələrinin dekorunda həndəsi və nəbati naxışların bədii ifadə tərzini üzə çıxarmaq;
- orta əsr şirəli keramikasında əksini tapmış həndəsi və nəbati elementlərin və rəmzlərin semantikasını açmaq;
- orta əsr keramika məmulatlarında süjetli təsvirlərin yerini və rolunu aydınlaşdırmaq;
- orta əsr Azərbaycan memarlığında istifadə olunmuş kaşıların üzərində olan həndəsi və nəbati, eləcə də kalliqrafik və süjetli dekorların konstruktiv-plastik və dekorativ-ornamental formaların bədii xüsusiyyətlərinin tədqiqini və təhlilini aparmaq;
- çoxəsrlik tarix və zəngin bədii ənənələr nəticəsində formalaşmış Azərbaycan keramika məmulatlarının ideya-bədii cəhətdən özünəməxsusluğunu üzə çıxarmaq.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmetini orta əsr Azərbaycan keramika sənətinin texnoloji və bədii dekorun inkişaf xüsusiyyətlərinin öyrənilməsi təşkil edir.

Tədqiqatın obyekti kimi keramika nümunələrinə dair arxeoloji tapıntılar, Azərbaycan Milli İncəsənət Muzeyində, Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyində, Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində, Şəki Xalq Tətbiqi Sənəti Muzeyində, Şəki Tarix-Diyarşünaslıq Muzeyində, Quba Tarix Diyarşünaslıq Muzeyində və dünyanın bir çox nüfuzlu muzeylərində qorunan eksponatlar, eləcə də Gəncə, Şəki, Quba, Naxçıvanda, Bakıdakı memarlıq abidələrində tətbiq edilən keramika-dekor elementləri çıxış edir.

Tədqiqat obyektinin əsasını Azərbaycanın müstəqillik dövrünə təsadüf edən və respublika ərazisində, o cümlədən Şəmkir, Qəbələ, Ağsu və digər bölgələrində Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş keramika nümunələri təşkil edir.

Eyni zamanda tədqiqatın obyekti qismində keramika sənətinin bədii xüsusiyyətlərinin araşdırılmasına yönəlmiş yazılı mənbələr də cəlb olunmuşdur.

**Tədqiqatın metodoloji əsası.** Elmi-tədqiqat işində bədii keramika sənətinin bədii xüsusiyyətlərinin təkamülü və inkişaf problemlərinin təhlilində milli və ümumbəşəri bədii dəyərlərdən, sənətşünaslığın elmi-nəzəri qənaətlərindən və dekorativ-tətbiqi sənətin bədii keramika növünə elmi təhlil baxımından yanaşma metodundan istifadə olunmuşdur. Problemin tədqiqində tarixi-müqayisəli və sənətşünaslıq təhlil metodu tətbiq olunmuşdur. Bədii keramika nümunələrinin təhlili ilkin arxeoloji materiallara istinadən tarixi-xronoloji ardıcıllığa əsasən aparılmışdır. Eyni zamanda hər bir texnoloji üsula görə də sənət nümunələrinin bədii xüsusiyyətlərin təhlili sistemli şəkildə öz əksini tapıb.

Problemin həllində müasir kompleks yanaşma prinsipindən, araşdırmalar üçün lazımlı olan bədii materialın tədqiqi tarix, arxeologiya, etnoqrafiya elmləri ilə əlaqəli öyrənilməsindən istifadə olunmuşdur. Bu, keramik sənət əsərlərinə hərtərəfli yanaşmağa, abidələrin genezisinin məzmun və forma bütövlüyünün, eləcə də onların dövrlərə görə yenidən dərkinin müəyyənləşməsinə və ya üzə çıxarılmasına, keramika sənətinin bədii məfhum kimi xarakterik cizgilərini və spesifikliyini müəyyən etməyə imkan vermişdir.

Dissertasiyanın yazılışında müəllif müasir kulturoloji fikrin və sənətşünaslığın nəzəri müddəaları və nəticələrindən yararlanmışdır. Metodoloji baza kimi dünya və Azərbaycan tədqiqatçılarının və sənətkarların bu mövzuya həsr olunmuş fikirləri, dəyərləndirmələri və nailiyyətləri çıxış etmişdir.

**Tədqiqatın sərhədləri.** Tədqiqatın xronoloji sərhədləri erkən orta əsrlərdən başlayaraq XVIII yüzilliyə kimi kifayət qədər uzun tarixi dövrü əhatə edir.

Dissertasiyanın coğrafi sərhədləri əsas etibarilə müasir Azərbaycan ərazisini əhatə edir. Bura son illərdə, yəni Azərbaycanın müstəqillik dövründə geniş vüsət almış arxeoloji qazıntılar aparılan bölgələr (Şəmkir, Ağsu, Qəbələ, Gəncə və d.) daxildir. Eyni zamanda nəzərdə tutsaq ki, orta əsrlər dövründə Azərbaycan ərazisi Cənubi Azərbaycanı da əhatə edirdi, tədqiqatın coğrafi sərhədləri müasir İranın müəyyən bölgələrini əhatə edərək genişləndirilmişdir.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunmuş və aşağıdakı müddəalarda öz əksini tapmışdır:

1. İlk dəfə olaraq orta əsr Azərbaycan keramika sənəti məmulatlarının dekorunun inkişaf prinsipləri kompleks şəkildə əhatəli tədqiqatın obyekti olmuşdur;

2. Respublika ərazisində son illərdə (2000-ci illərdə) arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş keramika məmulatları ilk dəfə olaraq sənətşünaslıq baxımından təhlil olunmuşdur;

3. Tədqiqata Azərbaycan keramika sənətinin inkişafına və onun ideya tutumuna təsir göstərən əsas amilləri aşkara çıxaran geniş material cəlb olunmuşdur;

4. Mövcud faktiki materialın ümumiləşdirilməsi nəticəsində erkən orta əsrlərdən başlamış XVIII əsrin sonuna kimi Azərbaycan keramika sənətinin bədii tərtibatının inkişafı tarixinin tədqiqi nəticəsində müxtəlif dövr insanlarının dünyagörüşləri ilə əlaqədar bədii ideyaların təkamülünü üzə çıxarmağa, bu sənətin əsas qayəsini və üslub xüsusiyyətlərini qabartmağa, ənənələrin varisliyini və dövrlər arası əlaqəni təyin etməyə imkan vermişdir;

5. Keramika məmulatlarının bədii tərtibatında iştirak edən dekorun məna-məzmun yükünü aşkara çıxarmaq üçün mifoloji material və qədim inanclar üzərində aparılan araşdırılma nəticəsində türklərin dünyagörüşünü üzə çıxarmağa cəhd göstərilmişdir;

6. Keramika məmulatlarının funksional və bədii-estetik təhlili dulusçuluğun sənətkarlığın bir sahəsi kimi spesifik xüsusiyyətlərini müəyyən edilməsinə imkan vermiş, bununla da onların Azərbaycan dekorativ-tətbiqi sənətində yeri müəyyənləşdirilmişdir;

7. Kompleks şəklində aparılmış sənətşünas təhlili keramika sənətinin bədii xüsusiyyətlərinin formalaşmasının bütün rəngarəngliyinin üzə çıxarılmasına, onun ayrı-ayrı növlərinin təsnifatının həyata keçirilməsinə imkan verir. Onların rolunu, forma-biçim və məna-məzmun bütövlüyünü üzə çıxarmaq, insanların fikir və hissləri, onların həyat və kainat, xeyirxahlıq və gözəllik haqqında təsəvvürlərinin aşkarlamaq, Azərbaycanın müxtəlif sənət və mədəniyyət mərkəzlərinin sənətkarlıq işlərində yerli bədii xüsusiyyətlərin cizgilərinin müəyyənləşdirilməsinə kömək edir.

**Işin praktiki əhəmiyyəti**. Tədqiqat işi Azərbaycanda keramika sənəti vasitəsilə dekorativ-tətbiqi sənət tariximizin nəzəri tutumunun zənginləşməsinə,

ictimai-mədəni həyatın bir çox sahələrində tarixən təzahür edən keramika sənəti nümunələrinin orta əsrlərə xas texnoloji, bədii inkişaf xüsusiyyətlərini daha əhatəli izləməyə imkan verir.

Tədqiqata cəlb edilmiş bir çox keramik məmulatların eyni zamanda Azərbaycan dekorativ-tətbiqi sənət tarixinə yeni faktlar bəxş etməsini də onun praktiki əhəmiyyəti hesab etmək olar. Dissertasiyada yer almış faktların və gəlinən qənaətlərin ümumi tutumu onun bu sahə üzrə gələcək nəzəri və estetik tədqiqatlarda qaynaq kimi istifadəsini gərəkli edir.

Bundan əlavə, tədqiqatın nəticələri müasir dekorativ-tətbiqi sənət ustalarına, respublikanın el sənəti sahələrinin inkişafı və bərpası məsələləri ilə bağlı varisliyin daha dərindən dərkinə və mənimsəməsinə kömək edə bilər. Tədqiqatın materialları onun bədii təmayüllü orta və ali məktəb tələbələri üçün dərs vəsaiti kimi istifadəsinə imkan verir.

Bununla yanaşı, tədqiqatın materialları muzey işçiləri, eləcə də, sənət ekspertlərinə – kolleksiyaçılara məlumat daşıyıcısı kimi, populyar ədəbiyyat kimi də xidmət göstərə biləcək elmi informasiya malikdir.

Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta təhsil ocaqlarında, sənətşünaslıq, dekorativ-tətbiqi sənət və heykəltəraşlıq ixtisasları üzrə təhsil alan tələbələrə “Azərbaycan incəsənəti tarixi”, “Dekorativ-tətbiqi sənət tarixi”, “Ornament tarixi” fənlərinin tədrisi zamanı köməkçi dərs vəsaiti kimi istifadə oluna bilər. Dissertasiya həmçinin etnoqraf, tarixçi və sənətşünasların yararlana biləcək dəyərli vasitədir.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrasının iclasında müzakirə edilmiş, mövzu üzrə axtarışları əks etdirən məruzələr müxtəlif səpkili elmi konfranslarda dinlənilmişdir. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 6 məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, iki fəsil, dörd yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 154 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DISSERTASIYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandlırılır, problemin işlənmə dərəcəsi, işin nəzəri-metodoloji əsasları, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti açıqlanır.

**Birinci fəsil – "Orta əsr Azərbaycan keramikasında dekor axtarışları"** adlanır. Burada şirəsiz və şirəli keramika nümunələrinin dekorunda həndəsi və nəbati naxışların bədii ifadə tərzinin xüsusiyyətləri tədqiq olunur. Iki hissədən ibarət olan fəslin birinci yarımfəsli **orta əsr şirəsiz keramika nümunələrinin dekorunda həndəsi və nəbati naxışların bədii ifadə tərzinin** açıqlanmasına həsr olunub.

Orta əsr saxsı məmulatı hazırlanma texnikasına görə iki əsas qrupa – şirəsiz və şirəli qablara bölünür. Şirəli keramika məmulatının texnoloji və bədii cəhətdən formalaşıb inkişaf etdiyi dövrə qədər orta əsr əhalisinin məişətində şirəsiz saxsı məmulatının xüsusi rolu olmuşdur. Bakı, Beyləqan, Şabran, Şamaxı, Mingəçevir və digər orta əsr şəhərlərində məlum olan şirəsiz keramika öz forma, bəzək üsulları və ümumi dekor qurulusunu uzun əsrlər boyu saxlamış, demək olar ki, çox az dəyişilmişdi. Sırf məişət və təsərrüfatla bağlı olduğu üçün onların materialı və bəzəyi çox vaxt səliqəsiz, bir qədər də kobud icra olunmuşdu.

Azərbaycanın ilk orta əsr gil qablarını, üzərindəki naxış üsullarına görə dörd qrupa bölmək olar: cızma, yapma, basma və möhürləmə. IX-X əsrdən başlayaraq şirəsiz keramika məmulatının keyfiyyəti xeyli yaxşılaşmağa başlayır və onların bədii görünüşü müxtəlif dəyişikliyə məruz qalır. Bu dövrün keyfiyyətli gildən hazırlanmış nazik divarlı qabları plastik formalarına, dəqiq işləmələrinə görə xüsusilə seçilir.

Orta əsrdə Azərbaycanda saxsı məmulatı istehsalı texnikası daha da təkmilləşir, əllə işlədilən dulus çarxı hər yerdə sürətlə hərəkət edən ayaq dulus çarxı ilə əvəz olunur, qab hazırlama və naxış vurma üsullarında yeniliklər baş verir.

IX-XIII əsr şirəsiz saxsı qabları çeşid və forma etibarı ilə çox müxtəlifdir. Qabların çox çeşiddə olması onların müxtəlif məqsəd üçün istifadə edilməsi ilə əlaqədardır. Sərnic, küpə, dopu, goduş və s. qablar əsas etibarilə maldarlıq

təsərrüfatı ilə bağlı olub, ağartı üçün istifadə edilirdi. Şirəsiz saxsı məmulatının əsas kütləsini, əlbəttə, mətbəx və süfrə qabları təşkil edir. Orta əsrlərə aid şirəsiz saxsı qazanlar Beyləqan, Gəncə, Bəndovan, Qəbələ, Bərdə şəhər yerlərindən aşkar olunmuşdu.

Azərbaycanın son orta əsr şirəsiz saxsı məmulatı rəngarəng ornamentlərlə naxışlanmışdır. Dulusçular şirəsiz qabların bədii görkəmini yaxşılaşdırmaq məqsədi ilə XIV-XVII əsrlərdə əsasən xətti, nöqtə varı və basma ornamentlərdən istifadə etmişlər. Nəticə olaraq demək olar ki, orta əsr Azərbaycan şirəsiz keramikasının dekorunda istifadə olunan həndəsi və nəbati naxışların bədii-estetik tutumu forma-biçim müxtəlifliyi və rəng əlvanlığı ilə seçilir.

Həmin dövrün şirəsiz qablarına çeşidli üsullarla naxışın vurulması, həndəsi və nəbati naxışların məmulatların tutumunun qabardılmasında rolunun qabardılması, tətbiq olunan naxışların sadədən mürəkkəbə doğru evolyusiyası, eləcə də həndəsi və nəbati naxışların məmulatların məna-məzmun daşıyıcılığına təsiri xasdır.

**I Fəslin II yarımfəslində** orta əsrlərin şirəli keramikasında həndəsi və nəbati elementlərin əks olunmasına diqqət yetirilmişdir. Dekorativ-tətbiqi sənət nümunələri olan Azərbaycan orta əsr keramikası forma, dekor və kompozisiya baxımından böyük maraq doğurur. Bu dövrdə istehsal olunan və müxtəlif bədii zövqün nəticəsi olan keramika nümunələri sırasında şirəli keramika xüsusi yer tutur.

Akademik Rasim Əfəndi qeyd edir ki, “VIII əsrdən başlayaraq Azərbaycan keramikası intibah dövrünə addım atdı. Oyanışı və yüksəlməsi ilə bərabər yeni tip keramika gətirdi. Yeni tip keramika, Alban dövrü keramikasından həm plastik forması, həm də ev və məişət istifadə baxımından fərqli idi. Yeni tip keramika anqob və şirənin istifadəsi baxımından yeni dekorativ xüsusiyyətlərə malikdir”[13].

Şirəli məişət keramikasının ilk nümunələri Qəbələ, Qədim Gəncə, Beyləqan, Şabran, Mingəçevir, Şamaxı qazıntılarından aşkar edilmişdir.

Azərbaycan keramikasının ilk orta əsrlərdəki ən böyük müvəffəqiyyəti onların şirə mayesi ilə örtülməsidir. Kütləvi halda şirədən istifadə IX-XI əsrlərə təsadüf

---

[13] Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı: İşıq, 1976.

edir. Bu əsrlərdə bədii saxsı məmulatları şirələmə texniki üsulunu və ümumiyyətlə onların bəzək xüsusiyyətlərini özündə əks etdirən nümunələr Qəbələ, Bakı, Mingəçevirdən tapılmışdır.

XI-XIII əsrlərə aid şirəli keramikanın ən geniş yayılmış növü şirə altı naxışlarla bəzədilmiş monoxrom məmulatlar idi. Dövrün keramikası həndəsi, nəbati və epiqrafik ornamentlə bəzədilirdi. Ən sadə və geniş yayılmış ornamentlər buruq, spiral, oval, kəsişən xətlər və torlardan ibarət idi.

Şirəli məişət keramikasının ilk nümunələri Qəbələ, Qədim Gəncə, Beyləqan, Şabran, Mingəçevir, Şamaxı qazıntılarından aşkar edilmişdir. XI-XV əsrlərdə saxsı məmulatlar içərisində anqoblanmış şirəli qablar mühüm yer tuturdular. Bu dövrə qədər anqobdan gil qablarının üzərindəki məsamələri örtmək və onun rəngini dəyişdirmək üçün istifadə edilirdisə, XII-XV əsrlərdə anqobdan astar kimi istifadə etmişlər.

XI əsrdə Azərbaycanın şirəli keramikasında məmulatların dekorunda yeni ifadə vasitəsi – əsas naxışı qeyd etmək məqsədilə fonun qazılması ilə əmələ gələn oyuqlu texnika meydana gəlir. Məmulatlar aşıq anqobla örtülür və nəm anqobun üzərində nəzərdə tutulmuş naxış salınırdı. Sonra rəsmin ətrafındakı fonu, yəni anqob qatını təmizləyərək, ornamental motivləri saxlayırdılar. Bundan sonra qablar mina ilə örtülür və bişirilirdi.

Artıq IX əsrdə Azərbaycanda zəngin mis, dəmir, kobalt, marqan və s. kimi təbii yataqların tapılması nəticəsində müxtəlif boya maddələrdən istifadə etməyə və keramikaların üzərini örtmək üçün müxtəlif şirələrin hazırlanmasına şərait yaratmışdır. IX-XII əsrdə keramika texnologiyasının inkişaf etməsi sayəsində keramika məmulatları əsl sənət əsərinə çevrilmişdir.

XII əsrdə İslam sənətinin klassik dövründə keramika sənəti də duyulası zirvəyə çatmışdır. Qədim ənənələrə bağlı olaraq inkişaf edən keramika, yeni dekor metodları, müxtəlif parlaq keramika məmulatlarla özünə xas yerli xüsusiyyətlərə sahib olan motiv və mövzulu kompozisiyalarla zənginləşirdi. Keramika rəssamları dekor üsullarının texnoloji müxtəlifliyini, anqob rəngləri və motivləri cızma ilə (sqrafitto), şəbəkəli motivlərlə, anqobu qazaraq bəzək verirdirlər.

Naxışın yerliyini qazıb dekoru üzə çıxarmaq (sqrafitto üsulu) xüsusi bədii görünüşə malik olub, çox asan yol ilə əldə edilirdi. Mühit xətti müəyyən edilmiş dekorun yerliyini, yeni anqob qatını qazıb çıxardıqdan sonra rəngli şirədən istifadə olunurdu. Anqoblu naxışın üstündəki şirə qabın təbii – kərpici qırmızı rəngi üzərindəki şirədən daha açıq rəngdə göründüyü üçün bu növ qablarda xüsusi rəng effekti yaranırdı. Əsasən yaşıl rəngli şirə ilə örtülmüş belə qab nümunələrində tünd yaşıl naxış motivləri (şirə kərpici-qırmızı qabın üstünə düşür) xüsusilə aydın görünüşə malik idi. Eyni qamma və rəng ahəngdarlığında olan dekor öz relyefliliyi, işıq kölgə effekti ilə seçilir, qabın ümumi səthinə bədii oynaqlıq verirdi. Göründüyü kimi, dulusçu ustalar çox sadə dekor vasitələri ilə (anqob, şirə və qabın təbii rəngi ilə) zəngin görünüşə malik tətbiqi sənət nümunələri yaradırdılar.

Rəngli şirə altından müəyyən edilmiş naxışı qazıb çıxarmaq, kəsməklə, basma ilə dekor və naxış motivlərini qabın səthinə yapışdırmaqla keramika növlərinə tamamilə oxşar dekorativ effekt əldə edilirdi. Rəngli şəffaf şirə altında yaranan bu dekorativ effekt XII-XIII əsr rəngsiz şirə ilə örtülmüş keramika məmulatında daha da təkmilləşdirilərək xüsusi bədiiliklə işlənirdi. Beyləqan, qədim Gəncə, Bakıdan məlum olan belə texnologiyalı qab nümunələri zəngin və çox ustalıqla işlənmiş dekorativ xüsusiyyətlərinə görə diqqəti xüsusilə cəlb edir.

Rəngsiz şirə altında ağ anqob yerlikdə təmiz və aydın rəngli boyalarla işlənmiş bu qabların əlvan dekoruna göstərilən texniki üslubla çəkilmiş naxışlar xüsusi rövnəq verir və onların təmtəraqlı görünüşünə nəciblik göstərirdi. Çox güman ki, şənliklər üçün hazırlanan bu nimçə, kasa və güldanlar tamamilə spesifik dekorativ kompozisiyalara malikdir. Enli, yaşıl zolaqların mürəkkəb hörgüsündən yaranan qeyri-müəyyən formalı boşluqlarda ağ anqob yerliyi qazıb çıxarmaqla zərif və dəqiq işlənmiş qıvrım nəbati motivlər üzə çıxarılırdı (üzüm ağacının buğlarını xatırladır). Açıq kərpici-qəhvəyi (rəngsiz şəffaf şir qabın üzərinə düşür) yerlikdə ağ naxışlar nəcib rəng ahəngdarlığı ilə diqqəti cəlb edir. Vaxtilə Beyləqan arxeoloji qazıntılarından tapılan bu növ qabların müxtəlif kompozisiya quruluşlu nümunələri xüsusilə diqqətəlayiqdir.

XII-XV əsrdəki keramika nümunələri, həm istifadə, həm də estetik xüsusiyyətlərinə görə iki qrupa ayrılır: 1.Məişətdə istifadə olunan keramikalar; 2. Memarlıqda istifadə olunan kaşılar.

Məişətdə istifadə olunan keramikalar Azərbaycanın müxtəlif bölgələrində aparılan arxeoloji qazıntılar zamanı tapılmışdır. Burada müxtəlif forma və dekorlu keramikaların istifadəsi görünməkdədir. Bunlara kuzə, sürahi, kasa, boşqab, şamdan və s. misal göstərmək olar.

Bu dövrə aid keramikalar həm şirəli, həm də şirəsiz olurdu. Şirəsiz keramikalar böyük həcmli küplər, süddanlar və çıraqlardan ibarətdir.

Şirəsiz keramikaların dekorları qazma və relyef formada hazırlanırdı. Bu dekorlar nəbati, həndəsi, müxtəlif insan, quş və heyvan şəklində dekorlara rast gəlinib. Onların dekorları, şirəli keramikalardan fərqli deyil. Ancaq bədii üslubun eyni olmasına baxmayaraq, müxtəlif keramika istehsal mərkəzlərinin özünə məxsusi bəzi dekor növləri də vardır.

Şirəli keramikanın istehsalı XII-XV əsrin keramikasının zirvəsi olduğunu deyə bilərik. Şirə şüşəyə bənzər rəngli maye, şəffaf və möhkəm uzun ömürlü olması ilə böyük şöhrət qazanmışdır. XII-XV əsrin keramikaları arasında anqobla örtülmüş şirəli keramikalar xüsusi yerə sahibdir.

Saxsı məmulatların bəzədilməsində əsasən şirə üstü və şirə altı boya texnikalarına müraciət olunub. Şirə altı boya (daha çox yaşıl, göy, qara, bənövşəyi) ilk olaraq gil qabın üzərinə çəkilir, sonra isə şirə batırılaraq odda qızdırılırdı.

Şirə üstü boya isə, adından göründüyü kimi, şəffaf məhlulun üzərinə çəkilirdi, ancaq bundan çox az istifadə olunub. Bütünlükdə saxsı məmulatlar, funksional əhəmiyyəti ilə yanaşı, üzəri incə nəbati naxışlar və quş, heyvan, insan təsvirləri ilə bəzədildiyindən, həm də xoş estetik təsir bağışlayar, zövqü oxşayardı. Belə növ keramikalar müxtəlif formalı ornamental kompozisiyalarla zəngindir və bədii həllinə görə olduqca maraqlıdır. Orta əsrlərdə Azərbaycan keramikasına kompozisiyada ornament müxtəlifliyi, yəni, nəbati və həndəsi motivlərin vəhdəti əlvan rəngarəng kolorit, yüksək texniki həll xasdır.

Arxeoloji qazıntılar zamanı tapılmış şirəli saxsı məmulatları arasında şirə üzərində müxtəlif rənglərlə naxışlanmış kasa və boşqablar da vardır. Bu tip şirəli qablar əsasən Naxçıvan keramika məktəbi üçün səciyyəvidir. Onlar şəffaf, mavi, açıq-firuzəyi, açıq-yaşıl rənglərlə örtülüb, tünd-göy, yaşıl, qəhvəyi, qara, çəhrayı rənglərlə bəzədilmişdir. Bəzək elementləri sadə həndəsi, nəbati, az-az hallarda isə təsvir motivlərindən ibarətdir.

Erkən şirəli saxsı qabların böyük bir qrupunu anqob ilə naxışlanmış, yaşıl şirə ilə şirlənmiş saxsı məmulatı təşkil edir. Onlar əsasən kasa, badya, nimçə, boşqab, piyalə tipli qablarla təmsil olunub. Diqqətəlayiq haldır ki, anqob naxışlı yaşıl şirəli saxsı qablar arasında güvəc və ya tava tipli qab nümunələri də vardır. Bu qrup saxsı məmulatı üçün mürəkkəb olmayan həndəsi ornamentlər: dairələr, romblar, üçbucaqlar, çox bucaqlar, torlar, dalğalı xətlərdən xonçalar, qövsvarı fiqurlar, səma cisimlərinin stilizə olunmuş təsviri kimi naxışlar səciyyəvidir.

Şirəli saxsı məmulatı istehsalının ikinci mərhələsi XI-XIII əsrin əvvəllərini əhatə edir və şirəli keramikanın bəzədilməsi texnologiyasında bəzi yeniliklərlə, keramikanın bədii işlənməsinin daha da mükəmməlləşməsi ilə səciyyələnir. Bu mərhələdə Azərbaycanın şirəli saxsı məmulatı istehsalı istər naxışlanma üsullarının müxtəlifliyi, istərsə də rəng çalarlarının əlvanlığı, parlaqlığı, dekor motivlərinin zənginliyi və kompozisiya qurulusunun mükəmməlliyi ilə özünün ən yüksək mərhələsinə qalxır. Bunun nəticəsi olaraq XI-XIII əsrlərdə Azərbaycan dulusçuluğu Qafqaz və müsəlman Şərqində önəmli bir yer tutur.

**İkinci fəsil – “Orta əsr Azərbaycan keramikasının məna-məzmun daşıyıcılığı”** adlanır və dekor rolunu oynayan rəmzlərə və onların semantikasına və süjetli təsvirlərin bədii xüsusiyyətlərinə həsr olunub. Orta əsr keramikasında rəmzlərin semantikasına həsr olunmuş I yarımfəslində qeyd olunur ki, orta əsrlər keramikasının özündə məna-məzmun daşıyıcılığı funksiyasını hifz edən dekorun – naxış örtüyünün zənginliyi danılmaz olan ornament və təsvir elementlərinin çoxu rəmzi mahiyyət daşıyır. Təbii ki, bu təkcə tədqiqata cəlb edilmiş dövrün keramikasında müşahidə olunmur. Belə ki, Azərbaycan təsviri və tətbiqi sənət növlərində ta qədimlərdən başlayaraq onların yaradıcıları kompozisiyaların

ümumi süjetini çox vaxt insanların-tamaşaçısının təfəkkürünü sınağa çəkə biləcək rəmzlərlə zənginləşdirmişlər.

Əgər Azərbaycan incəsənəti tarixinə nəzər salsaq, onda insan məişətində işlənən sənətkarlıq nümunələrinin naxış örtüyünün sələfi kimi qədim qaya təsvirlərinin çıxış etdiyini söyləyə bilərik. Qənaətimizcə, yaranması orta əsrlərə qədər davam edən qaya təsvirlərinin bir bəzək elementi kimi insanların məişətində istifadə etdikləri əşyalara, o cümlədən dulusçuluq məmulatlarına daşımaları bəzən nə qədər ehtimal kimi qəbul olunsa da, əslində məntiqə söykənən fikirdir.

Zaman keçdikcə çox qədim təsvir-bəzək elementlərinin sonralar əvvəlki inamla bağlılığı olmadan belə dekor vasitəsi kimi istifadə olunması da ilk növbədə onların estetikasına onu əhatə edən insanların mənəvi ehtiyacının olmasından irəli gəlmişdir. Təbii ki, əsrlər bir-birini əvəzlədikcə, insanların şüuru inkişaf edib zənginləşdikcə, onların təkcə ayin və sehrkarlıqla bağlı olmayan, bilavasitə həm dünya, həm də gözəllik duyumunu cizgi, təsvir və rənglərdə əks etdirən rəmzlər yaradılmışdır. Onların tədricən və haqlı olaraq xalqımızın müəyyən bir inkişaf dövrünün bədii üslubunun və estetikasının daşıyıcısına və ifadəçisinə çevrilmələri yəqin ki, tarixi baxımdan böyük əhəmiyyət kəsb edir. Öz əsərində əcdadlarımızın rəngləri mənalandırmaları məsələsinə toxunan N.Rzayevin “Əcdadlarımız bu böyük sehrkar qüvvəni öz həyati məqsədlərinə tabe etmiş, mənəviyyatlarının üzvi bir hissəsinə çevirmişlər. Bu qayda ilə rənglər də xalqımızın mənəvi mədəniyyətinin, onun etnik xüsusiyyətlərinin yaranmasında fəal surətdə iştirak etmişdir” fikrində hifz olunan məntiq də dediklərimizi təsdiqləyir.

Cizgilərlə və rənglərlə ifadə olunan və çox vaxt məna-məzmun daşıyıcısı olan naxış-rəmzlərin milli tətbiqi sənətimizin müxtəlif növlərində, o cümlədən, keramikada davamlı olaraq tətbiqi də yəqin ki, həm də onun estetikaya bələnmiş funksionallığından irəli gəlir. Bununla belə demək lazımdır ki, həm qədimlərdə, həm də indinin özündə belə tətbiqi sənət ustalarının “naxışsız”lığın estetikasının gərəkliliyini və təsirliliyini əldə etmələrinə rast gəlmək mümkündür ki, bu da heç şübhəsiz nə qədər yaradıcıların təxəyyülünə əsaslanırsa, bir o qədər də istifadəçi zövqü ilə bağlıdır.

Ta qədimlərdən başlayaraq, insanların fikir və düşüncələrini çox vaxt bədii formalarla – nişan-işarə, xətt və rəmz vasitəsilə ifadə etmələri heç şübhəsiz, bu qrafik formaların bilavasitə müəyyən məna daşıyıcılığı ilə bağlı olmuşdur. Məsələn, düz üfüqi xətt çox vaxt yerin müstəvisini, üfüqi dalğalı xətt – çay, göl, dəniz sularının, yeraltı dünyanın, şaquli dalğalı xətt – yağışı və tufanı ifadə edirdi. Dağlar simvolik olaraq üçbucaq, od-alov – xaç və ya svastika kimi təsvir olunurdu. Dairə günəşi və ayı əks edirdi.

Hər bir qəbilənin, tayfanın, xalqın, regionun özünün işlənib hazırlanmış işarə-təsvirlərin rəmzi mənası var idi. Qədim simvolikanın mövcudluğu, insan düşüncələrinin rəmzlərlə ifadəsi ənənəsi minilliklər boyu davam edərək son orta əsrlərə kimi qorunub saxlanılmışdır. Bunun həqiqətən də belə olduğunu bizim dövrə gəlib çatmış nümunələr də təsdiqləyir. Məsələn, insanların əmək fəaliyyətinin müşahidəsindən sonra yaranan hissələrə bölünmüş kvadratın içərisində yerləşdirilmiş nöqtələr və ya dairələrlə zənginləşdirilməsinin nəticəsi olan ornament əkin sahəsini ifadə edirdi.

Təsvirlər və həndəsi ornamentlər həm də qoruyucu funksiya daşıyırdılar. Bu və ya digər əşyanın üzərinə həkk olunan naxışlar onun sahibini zərərli qüvvələrdən qorumalı və xeyirli qüvvələri özünə cəlb etməli idilər. Keramik məmulatlarda əks olunmuş ornament eyni zamanda qabın içindəki məhsulları korlamadan qorumalı idi. Estetik nöqteyi-nəzərdən hər bir qabın üzərindəki dekor - ornament təkcə məmulatı bəzəmir, eyni zamanda onun səciyyəvi forma və ölçülərini qabardırdı.

Qeyd etməliyik ki, naxışların-işarələrin, yəni, bəzək kimi təsvir olunmuş simvolların-rəmzlərin mənşəyi əksər dövrlərdə bir sıra tədqiqatçıları maraqlandırmış və bu haqda müəyyən fikirlər irəli sürülmüşdür. Meydana gəlməsi tarixin ən qədim dövrlərinə təsadüf edən belə işarə-naxışlar forma müxtəlifliyi ilə neolit – eneolit dövrü estetik mədəniyyətində mövcud olmuş və fikir daşıyıcısı kimi aparıcı mövqe tutmuşlar.

Tarixi baxımdan, dərin köklərə və böyük yayılma arealına malik olan işarə-rəmzlər və eləcə də rəmzi xarakterli təsvirlər orta əsr dekorativ sənətinin bütün növlərində onların gözoxşayan estetik tutumunun daşıyıcısı olan dekor kimi geniş

tətbiq olunmuşdur. Belə motivlərə diqqət yetirdikdə, onların bir çox hallarda semantik mənalarını saxladıqlarını bu gün də müşahidə edirik.

Qədim dekorativ-tətbiqi sənətdə naxış kimi istifadə olunan su rəmzi nazik, düz xətlər və zolaqlar suyun ifadəçisi kimi çıxış edir. Onun bütün sahələrində - saxsı, metal əşyalarda, eləcə də toxuculuq nümunələrində və s. suyun zolaqlar şəklində ifadə olunması, onun rəmzinə çevrilməsi sonrakı dövrlərdə, o cümlədən orta əsr dekorativ sənətinin müxtəlif növlərində geniş tətbiq olunmuşdur. Bu cür xətlər, yəni, rəmzi sular yuxarıda qeyd etdiyimiz kimi hər hansı bir sərhədi bildirər, təsvirin obraza çevrilməsində təsirli rol oynayardı.

Orta əsr incəsənətində, xüsusilə də bədii dekorun əsasını təşkil edən naxış sənətində tez-tez rast gəlinən rəmzlərdən-simvollardan biri də mədaxillərdir. Orta əsr dekorativ sənətində geniş yayılmış mədaxillərdən bu gün də dekorativ sənətin müxtəlif sahələrində geniş istifadə olunur. Onlar semantik mənada ayrılmış məkanın bədxah ruhlardan qorumasını ifadə etdirirlər.

Orta əsr sənətkarlığında tez-tez müşahidə olunan və naxış kimi çıxış edən simvollardan biri də meandrdır (dolan-qaç). Həm də labirintin obrazlarından biri olan meandr əvvəlki dövrlərdə olduğu kimi hətta son orta əsrlərdə də saxsı və metal əşyaların üzərində, xüsusilə də onların boğaz hissəsində naxış kimi istifadə olunmaqla yanaşı, öz semantik - əbədiyyət, hər hansı başlanğıcın və sonun olmadığı mənasını da saxlamışdır. Azərbaycanın qədim dövr incəsənətində, o cümlədən orta əsrlər keramika sənətində svastikadan bəzək kimi istifadə olunması davamlı olmuşdur. Azərbaycan bədii sənətkarlıq nümunələrinə onların yaradıcılarının "çərxi-fələk" adı ilə daxil etdikləri və ilkin dövrlərdə həm də xaç forması daşıyan bu ornamentdən sovet dönəmində uzaqlaşma ondan faşistlərin siyasi məqsədlər üçün istifadə etmələri olmuşdu. Hətta zamanında onun yenidən dekorativ-tətbiqi sənətə gətirməyə çalışan görkəmli xalçaçı L.Kərimov təzyiqlərə məruz qalmışdı. Təəssüf ki, əslində milli təfəkkürümüzün məhsulu olan bu ornament-rəmzə soyuq münasibət bu günə kimi qalmaqdadır. Onun keramika sənətimizdə yerinin tarixi isə çox-çox uzaqlara gedib çıxmasını isə Xanlar kurqan qəbirlərindən tapılmış gil qabdakı svastika təsviri də təsdiqləyir. Svastika və ya "çərxi-fələk" təsvirinə

respublikamızın ərazisində aparılmış arxeoloji qazıntılar zamanı Şəmkir şəhəri ərazisindən tapılmış və orta əsrlərə aid olan keramik qapağın üzərində də rast gəlmək mümkündür.

Bildiyimiz kimi həyat mənbəyi olan günəşin təsviri həndəsi, nəbati ifadə formasına malikdir və müxtəlif variantlarla hələ ibtidai dövrlərdən başlayaraq tətbiq olunur. Qeyd etdiyimiz kimi günəş motivinin yaranma tarixi isə dekorativ sənətin ilkin dövrləri ilə bağlıdır. Dekorativ sənətin müxtəlif sahələrində tətbiq olunan motivlərdən biri olan günəşin əksi sonralar daha realistik şəkildə təsvir olunub.

Biz "tovuz quşu", "şir", "keçi", "xaç", "xaçvarı", "çərxi-fələk" və s. motivlərin təsvirinin simvolik şəkildə günəşi təmsil etdiyini qeyd etmişik. Lakin, bunlarla yanaşı sırf günəş görünüşlü sxematik, həndəsi və s. təsvir formasına malik naxışlar da mövcuddur.

Dekorativ sənətdə tez-tez rast gəldiyimiz rəmzlərdən biri də spiraldır. Tədqiqatçılar spiralı piktoqrafiyanın müasiri hesab edirlər. Belə ki, o, bəşəriyyətin ilk çağlarında əmələ gəlmiş və bundan sonra insanların həyatında davamlı yer alaraq bu günə qalmaqdadır. Azərbaycanın müxtəlif rayonlarının yaşayış məskənləri və qəbirlərdə aparılan qazıntılar zamanı aşkarlanan arxeoloji materiallar bunu sübut edir.

Əslində spiralın məna-məzmun daşıyıcılığı və motivləri çoxmənalıdır. Bəzi halda onun timsalında məhsuldarlığın rəmzi olan "istehsalçı" keçini və yaxud qoçun buruq buynuzunu görürdülər. Digər bir halda, spiral – su ideoqramı kimi qəbul olunurdu ki, bu da məhsuldarlığın rəmzi idi, belə ki, torpaqdan bol məhsul alınması və insanın həyatında bununla bağlı olan hər şey bilavasitə su ilə bağlı idi.

Hər bir türk mənşəli xalqa aid rəmzlər və simvolik obrazlar onun keçmişindən yararlanmaqla meydana çıxmışlar. Tarixi çox uzaq keçmişlə bağlı olan Azərbaycan ərazisində bu gün də rast gəlinən bir qrup təsvirlər də buna sübutdur.

Qeyd etməliyik ki, bir çox tədqiqatçılar rəmzlərin, simvolik obrazların yaranması, onların inkişafı və s. haqqında müxtəlif fikirlər söyləmişlər. Lakin bir faktı daima diqqət mərkəzində saxlamaq lazımdır ki, qədim dövrlərdə Azərbaycan ərazisində yaşamış insanlar öz həyatlarından bəzi epizodları real rəsmlər, rəmzi

işarələr və s. vasitəsilə ifadə etmişlər. Qədim və orta əsrlərdə Qafqazda yaşamış tayfalar və xalqlar arasında böyük əlaqələr mövcud olmuşdur. Buna görə də, bu tayfaların və xalqların yaşayış tərzlərində, dünyagörüşlərində uyğunluqlar və yaxınlıqlar vardır. Bu səbəbdən, Azərbaycan incəsənətində mövcud olan simvolik obrazlara Qafqaz xalqlarının, o cümlədən türksoylu xalqların incəsənətində də rast gəlinir.

Ümumiyyətlə, türkdilli xalqların, eləcə də Azərbaycan xalqının mifoloji görüşlərinə əsasən, onlarda ağac və bitkilərə inam güclü olmuşdur.

Həyat ağacı motivinin qədim və orta əsrlərdən başlayaraq simvolik obraz kimi incəsənətdə mövcud olması da bunu təsdiqləyir. Həyat ağacı simvolik motivlərinin müxtəlif variantlarına dekorativ incəsənətin demək olar ki, hər bir sahəsində rast gəlinir. Bu dövrdə biz həyat ağacı motivlərini yalnız əsas, aparıcı motiv deyil, həm də haşiyəni bəzəyən naxış kimi istifadəsini müşahidə edirik. Şəmkirdə aparılan arxeoloji qazıntılar zamanı tapılmış keramik qabın üzərindəki simvolik həyat ağacı təsviri haşiyədə yerləşdirilmişdir.

Həyat ağacı, həm də qadın başlanğıcını təcəssüm etdirir: mifoloji və folklor mətnlərində onu çox zaman Ulu İlahənin bu və ya digər obrazları ilə təsvir edirlər. Həyat ağacı ilə məhsuldarlıq, bolluq ideyası da əlaqələndirilir. Həyat ağacının ikili obrazı məhz bununla bağlıdır: onun bir gövdəsi qadın, digəri isə kişi başlanğıcıdır. Sevgililərin qəbri üstə bir-birinə doğru uzanan ağaclar və ilk adamların ağacdan yaranması (ilk insanlar olan Aske və Emblenin allahlar tərəfindən göyrüş ağacından yaranması haqda skandinav əsatiri mövcuddur) haqda əfsanələr də bu ideya ilə bağlıdır.

Dekorativ sənətdə tez-tez rast gəlinən və artıq naxış motivlərinə çevrilmiş rəmzlərin bir hissəsini isə canlı varlıqların təsviri təşkil edir. Dekorativ sənətdə bu cür varlıqlardan öküz, keçi, at, it, ceyran, maral, şir, dəvə, ilan, əjdaha, bülbül, xoruz, ördək, tovuzquşu, qartal, balıq və digərlərinin təsvirlərinə rast gəlinir. Bu qəbildən olan canlıların ifadə vasitələrinə gəldikdə, onlar sxematik, həndəsi, realistik, şərti – dekorativ və fantastik üslublarda çəkildiklərini deməliyik. Belə

motivlər dekorativ sənətdə və eyni zamanda bu sənətin çeşidli növlərində elə bu prinsiplərə uyğun olaraq təsvir olunurlar.

Dekorativ sənətdə rast gəlinən naxışlardan biri də ilan motividir. Hər bir tarixi dövrün dekorativ sənətinin müxtəlif növlərində təsvir olunan ilan motivi semantik mənada axirət, yeraltı dünya, ölüm, şər qüvvə, ruh və s. bu kimi anlamları özündə ehtiva edir.

Sənətşünaslıq üzrə elmlər doktoru S.Sadıxovanın "Qədim insanlar ilan obrazını ikili dərk edirdilər: ilan məhsuldarlıq, ailə ocağı, kişi başlanğıcının rəmzi idi, və eyni zamanda məkr, şər, ikiüzlülük (belə ifadə mövcuddur – "ilan dili"), qadın başlanğıcı, yağış və suyun emblemi idi" fikri də dediklərimizi təsdiqləyir [14].

Orta əsrlərdə əjdaha motivi isə daha çox dekorativ-tətbiqi sənətdə tətbiq olunur və bu motivin burada özünəməxsus yeri var. Bu motiv həm əsas, aparıcı, müstəqil naxış elementi, həm də bəzək naxışları kimi təsvir olunur.

Artıq orta əsrlərdən başlayaraq dekorativ sənətdə geniş yayılmış bu motiv əsasən "Xeyir və Şərin mübarizəsini ifadə edir. Onu da qeyd etməliyik ki, əjdaha müxtəlif mifoloji sistemlərdə fərqli semantik yükə malikdir və müxtəlif əsatirlərdə odun, suyun təmsilçisi kimi də çıxış edir.

Bu yerdə deyək ki. dekorativ-tətbiqi sənət nümunələrinin, o cümlədən də keramikanın dekorunun məna-məzmun daşıyıcılığında ornament və naxışlarla yanaşı, əşyaların üzərini bəzəyən süjetli təsvirlər də tətbiq olunmuşdur. Bizim dövrə gəlib çatmış nümunələr də bunu təsdiqləyir.

**Fəslin II yarımfəslində** orta əsr keramikasında süjetli təsvirlərin bədii xüsusiyyətləri araşdırılır. İslam dininin ölkədə yayılmağa başladığı dövrdən onun bəzi hədislərdə ifadə olunan tələblərinin subyektiv-birtərəfli şərhi təsviri və tətbiqi sənətin, o cümlədən bədii sənətkarlığın müxtəlif növlərində ornamentallığın geniş vüsət almasına səbəb olmuşdur. Bunun nəticəsində canlı varlıqların təsviri tam aradan çıxmasa da daha şərti formada təsvir olunmaqda davam etdirilmişdir.

---

[14] Садыхова С.Ю. Охранительно-магическое значение ювелирных украшений Азербайджана // "Memarlıq, şəhərsalma tarixi və bərpası" – Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının toplusu. № 1 – Bakı, 2011.

Yastı qablar, kasa, küpə, dar boğazlı və digər müxtəlif formalı qablarda heyvan, quş, insan təsvirləri stilizə edilmiş formada dekorativləşir və əsasən nəbati, həndəsi, kalliqrafik ornamentlərlə əlaqəli vəziyyətdə verilirdi. Bu yerdə deyək ki, Azərbaycanın Səlcuq imperatorluğu tərkibinə daxil olduğu XI-XII əsrlər onun incəsənətinə, xüsusilə də keramika sənətinin inkişafına müsbət təsir göstərmişdir.

Keramikada poetik-lirik motivlərin tətbiqi ilə əlaqədar bildirək ki, təsviri və tətbiqi sənətin daha tutumlu məzmun daşıyıcısına çevrilməsində Şərq və Azərbaycan ədəbiyyatı nümunələrinin, xüsusilə də Nizami "Xəmsə"sinin duyulası təsiri olmuşdur. Bu barədə sənətşünas N.Zamanovun "Düşündürən naxışlar" kitabında oxuyuruq: "XIII-XIV əsrlərdə geniş yayılmış Nizami "Xəmsə"sinin miniatür sənətinin inkişafına səbəb olduğu kimi bu poemaların ayrı-ayrı süjetləri xalq sənətinin bir çox başqa növünə də sirayət etmiş, bədii bəzək vasitəsi kimi dekorativ və tətbiqi sənətin müxtəlif növlərində bəzək vasitəsi kimi istifadə olunmuşdur"[15].

Digər tədqiqatlarda da orta əsrlər Azərbaycan keramikasında süjetli təsvirlərin yer almasına, onların bədii xüsusiyyətlərinə münasibət bildirilmişdir. R.Əfəndinin "Azərbaycan incəsənəti" kitabında Təbrizli sənətkarların keramika ilə bağlı yaradıcılığı yüksək dəyərləndirilmişdir[16].

Tədqiqatçıların diqqətini cəlb edən keramika nümunələrinin bədii xüsusiyyətinin özünəməxsusluğu da danılmazdır. Bu əşyaların dekorunu təşkil edən təsvirlərin ifadə xüsusiyyətləri istər-istəməz həmin dövrün əlyazmalarını bəzəyən illüstrasiyaları yada salmaqla yanaşı, tamaşaçısını düşünməyə məcbur edir. Əsasən həndəsi və stilizə edilmiş nəbati naxışlarla zəngin keramika məmulatlarının bəzəyində heyvan, quş, insan təsvirlərinə Beyləqanda aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş qabların üzərində rast gəlmək olur.

Süjetli motivlərin orta əsr Azərbaycan keramikasında geniş yayılması barəsində informasiyaya elmi ədəbiyyatlarda da rast gəlinir.

---

[15] Zamanov N. Düşündürən naxışlar. Bakı: Gənclik, 1981.
[16] Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb. 2007.

Azərbaycan dulusçuları bu və ya digər həndəsi, nəbati naxışları və süjetli motivləri kasaların dairəvi səthinə böyük ustalıq və bacarıqla çəkə bilmişlər. Rəsmlərin və rənglərin seçilməsində, onların əlaqələndirilməsində Azərbaycan dulusçu ustaları, xüsusilə XII-XIII əsrin əvvəllərində böyük kamillik nümunəsi nümayiş etdirmişlər.

Araşdırmalar göstərir ki, "Azərbaycanda bu əsrlərdə məişətdə geniş istifadə edilən saxsı məmulatları ilə yanaşı, müxtəlif formalı bədii kaşılar da istehsal edilmişdi. Bu növ məmulat əsas etibarilə memarlıq sahəsində istifadə edilmiş və Azərbaycanın bir çox şəhərlərindəki məscidlərdə, hamamlarda, saraylarda və s. yerlərdə işlədilmişdir"[17].

Bu dövrün keramikasında geniş yayılmış quş və heyvan təsvirləri bir qayda olaraq nəbati ornamentlə çox uğurla uyğunlaşdırılırdı. Mürəkkəb nəbati ornamentlər ümumi kompozisiyanın fonu və komponenti idilər. Onu da qeyd etmək lazımdır ki, heyvan və quş təsvirləri qabın dibində yerləşərək kompozisiyanın mərkəzi mövqeyini tuturdu.

Orta əsr Azərbaycan keramikasının ifadə zənginliyini o dövrün nimçələri ilə yanaşı, başqa formaya və funksiyaya malik qablarda da müşahidə etmək mümkündür. Bu mənada XIII əsrin əvvəllərində hazırlanmış şirəli keramik kubokun bədii xüsusiyyətləri diqqətçəkəndir. Növbəti dəfə Atabəylər dövrü keramikasının özünəməxsusluğunu görməyə imkan verən bu orijinal formalı kubokun cəlbediciliyini şərtləndirən başlıca bədii xüsusiyyət onun səthinin başdan-başa təsvirlə örtülməsidir.

XVI-XVII yüzilliklərdə bədii xalça və parçalarında təsadüf olunan Səfəvi zadəganlarının həyat və məişətindən götürülmüş səhnəciklər və qeyri süjetlərə orta əsr Azərbaycan keramikasında da rast gəlinir. Hazırda dünyanın bir çox muzey və şəxsi kolleksiyalarında Azərbaycanda nəzərdən keçirdiyimiz əsrlərdə hazırlanmış çoxlu keramika sənəti nümunələri saxlanmaqdadır.

**Üçüncü fəsil - "Orta əsr Azərbaycan memarlığında keramik dekorun**

[17] Nəcəfova N.N. XII-XV əsrlər Azərbaycan bədii keramikası. Bakı: Elm, 1964.

**bədii xüsusiyyətləri"** adlanır və kaşı üzərində olan həndəsi və nəbati, eləcə də kalliqrafik və süjetli dekorlardan söz açır. Fəslin "Kaşı üzərində olan həndəsi və nəbati dekorlar" adlı **I yarımfəslində** qeyd olunur ki, orta əsrlər Azərbaycan keramikası təkcə xalqın məişətində istifadəsinə görə məşhur olmamışdır. Onun dövrünün memarlığında geniş istifadə olunması da bunu təsdiqləyir. Bu mənada zahiri görkəminə görə gözoxşayan tikililərin daxilində keramikanın müxtəlif forma-biçimlərdə ifadəsi ilə qarşılaşmaq yəqin ki, təbii idi.

Keramika məmulatı yarandığı gündən böyük inkişaf prosesi keçmiş, zaman keçdikcə istifadə məqsədinə görə iki böyük qrupa bölünmüşdür. Bunlardan birincisi və başlıcası məişət keramikası, ikincisi isə ilkin şəhərsalmanın və memarlığın inkişafı ilə əlaqədar yaranan memarlıq keramikasıdır. Birinci memarlıqda istifadə edilən keramika materialları, o cümlədən bişmiş kərpic, terrakota, kaşı (mayolika) və kaşı mozaikası tikilini xarici aləmin təsir qüvvələrindən (yağış, qar və s.) qorumaqla həm də üzlük xarakteri daşıyırdı. Bu materiallar həm də tikilinin estetik təsir qüvvəsini və gözəlliyini artırırdı.

Memarlıqda ən çox İslam dövrü şəhərlərində tikilən saray, məscid, türbə və hamamların bədii tərtibatında keramikadan-kaşılardan istifadə edilirdi. Lakin məişət keramikası ilə memarlıq keramikası arasında forma-biçim, eləcə də texnoloji cəhətdən fərqlər mövcud idi.

Azərbaycan memarlığında dekorasiyanın tətbiqinin gücləndirilməsi gəc-kərpic ornament lövhələrinin mürəkkəb naxışlı girih şəbəkələrinin yaradılmasına səbəb oldu. Həmin lövhələr inşaat sahəsinin yanında əvvəlcədən hazırlanır və sonradan divar səthinə bərkidilirdi. Bu cür üzlük lövhələr XII əsrdə Naxçıvanda Yusif Küseyir oğlu və Möminə xatun türbəsinin tikintisində istifadə edilib. XII əsrdə Naxçıvan-Marağa memarlıq məktəbində şirəli kərpiclərin memarlıq bəzəyi kimi tətbiqi xüsusilə mükəmməl xarakter daşıyırdı. Buna misal olaraq Möminə xatın və Göy Günbəzi misal göstərmək olar. Həmin abidələri həm də kaşıçılıq sənətinin şah əsərləri sırasına daxil etmək olar. Şirvan bölgəsində isə Pirsaat üzərindəki Pir Hüseyn xanəgahı da yüksək bədii kaşı dekoruna malikdir.

Xalqın çoxəsrlik mədəniyyəti sayəsində daha da zənginləşən ornament sənəti orta əsrlərdə yeni bir inkişaf mərhələsinə, yeni memarlıq keramikasına daxil olur. Memarlıq keramikası monumental binaların tacına çevrilir. Memarlıq keramikasının kaşı bəzəklərində istifadə edilən ornamentlər iki hissəyə: həndəsi və nəbati ornamentlərə bölünür.

Azərbaycan memarlıq keramikasında XII əsrin ortalarından başlayaraq XIII əsrə qədər əsasən firuzəyi rəngli şirələrdən istifadə olunmuş və XIII əsrin axırları, XIV əsrin əvvəllərində keramika bəzəklərində tünd göy, ağ, tünd bənövşəyi, qara rəngli şirələr əlavə edilməklə rənglərin qamması genişlənmişdir. XV əsrdən kaşılara daha iki rəng sarı və yaşıl rəngli şirələr əlavə edilərək XVII əsrə qədər öz praktiki əhəmiyyətini itirməmişdir. XVIII-XIX əsrlərdə memarlıq keramikasında əsasən kaşı kərpic bəzəyi istifadə olunurdu.

**Fəslin II yarımfəsli** kaşı üzərindəki kalliqrafik və süjetli dekorların bədii təhlilinə həsr olunub. Azərbaycan təsviri və tətbiqi sənətinin məna-məzmun tutumunun zənginləşməsində yazı-xəttatlıq nümunələrindən istifadənin yeri danılmazdır. Dekorativ-tətbiqi sənətdə, o cümlədən də keramikada bu cür xəttatlıq yazıları həm müstəqil ornament elementi kimi çıxış edir, həm də təsviri sözlə tamamlamağa xidmət edirdi. Elə orta əsrlər Azərbaycan keramikasında da kalliqrafik yazılardan bu məqsədlə istifadə olunmuşdur. Bu xətt növlərinin kifayət qədər çox olması isə onların dekorda tətbiq imkanlarını genişləndirmiş, son nəticədə müxtəlif funksiyalı məmulatların – məişət əşyalarının və memarlıqda tətbiq olunan kaşıların bədii-estetik dəyərini artırmışdır.

Orta əsr Azərbaycan keramikasında həndəsi-nəbati, xüsusilə də kalliqrafik təsvirlərin dekorlarda geniş yer almasında həm də canlı təsvirlərinin "Quran"ın qadağan etməsi barəsində yayılmış məlumatların da az təsiri olmamışdır. Əslində isə, bu "qadağa"nın yalnız hədislərdə yer almış tövsiyə olduğu bu gün hər kəsə bəlli həqiqətdir. Yeri gəlmişkən deyək ki, bu "qadağa"da insanlara büt xarakterli heykəllərin hazırlanmaması tövsiyə olunur. İslam incəsənəti tarixinin çoxəsrlik tarixinə rəğmən demək olar ki, orta əsrlərdə nə Şərq, nə də bilavasitə Azərbaycan incəsənətində canlı təsvirləri "qıtlığı"na rast gəlinmir. İslamın yenicə yayıldığı

dövrdə səslənən bu tövsiyənin sonrakı dövrlərdə təsirinin az görünməsini yalnız görkəmli tarixçi-alim S.Aşurbəylinin də qeyd etdiyi kimi, xilafətin zəifləməsi ilə izah etmək olar. Aparılan tədqiqatlara nəzərən demək olar ki, həm bütünlükdə Azərbaycan incəsənətində, həm də orta əsrlərin keramikasında islama zidd təsvirlər olmamışdır[18]. Başqa sözlə desək, dekorlarda sənətkarlar arzuladıqları motivlərdən istifadə etmişlər. Elə yerli sənətkarların keramik məmulatların dekoruna kalliqrafik və süjetli motivləri daxil etmələri də bunun göstəricisidir.

XVI-XVII yüzilliklərdə Azərbaycan memarlıq abidələrinin yaraşığı sayılan bir çox nadir kaşı kompozisiyası nümunəsi qalmışdır. Bunlardan ilk növbədə Qusar rayonunun Həzrə kəndindəki Şeyx Cüneyd türbəsinin daxili bəzəyində işlədilmiş kaşı qalıqlarını və Ərdəbildəki Şeyx Səfi kompleksinin bədii tərtibatında istifadə edilmiş kaşı bəzəklərini göstərmək olar.

Keramika sənəti nümunələrinin üzərində həkk olunmuş müxtəlif tutumlu dekorativ ornamentasiya o dövrdə yaşayan insanların dini təsəvvürləri, dünyabaxışları və qədim Azərbaycan ənənələri haqqında təsəvvürləri çatdırır, yəni məlumat xarakteri daşıyır. Yuxarıda haqqında söz açılan Azərbaycan keramika sənətinin özünəməxsusluğunun göstəricisi olan dekor tərtibatının təkamülü sübut edir ki, orta əsrlərdə nəsildən-nəslə ötürülən keramikaçı-rəssamların peşəkarlığı artmış və zamanın axarında daha da mükəmmələşmişdir.

Tədqiqatın **“Nəticə”** hissəsində tədqiqatda şərh olunan mövzulara yönəli yekun xarakterli müddəalar yer almışdır:

1. IX-XIII əsrlər – monqollara qədərki dövrdə – keramika sənəti üslubunun formalaşması müsəlman dünyagörüşünün təsiri altında baş verirdi. Yerli ənənələrin istiqamətinin dəyişilməsi, təsviri incəsənətin inkişafının məhdudlaşdırılması, zəngin ornamentin intensiv inkişafı və mükəmməlləşməsi nəzərə çarpır. Qrafik kompozisiyaya oyma vasitəsilə icra olunan əlvan rənglər daxil oldu, onu zənginləşdirdi və ayrılmaz əlamətinə çevrildi. Bəzəklərin zoo- və fitomorf motivlərinə kalliqrafik yazılar – xeyir-dualar əlavə edildi;

[18] Ашурбейли С.Б. Скульптура Азербайджана древнего периода и периода средневековья // «Труды музея истории Азербайджана», т.I, Баку,1956.

2. XIII-XIV əsrlər monqol istilası dövründə incəsənətin başqa növlərində olduğu kimi, keramika sənəti də tənəzzülə uğradı. Keramika nümunələrinin dekorativ ornamentasiyasında xüsusi dəyişiklər baş verməsə də, süjetli kompozisiyalarda verilmiş insan təsvirlərində monqollara xas etnik xüsusiyyətlər nəzərə çarpır;

3. XIV-XVIII əsrlərin II yarısının – son orta əsrlər mərhələsinin keramika sənətində bəzədilməyə səy, çox nəfis ornamentallığa meyl hiss olunur. Realistik şərh edilənlərin yerinə gələn formaların nəbati ornamental üslublaşdırılmasının üstünlüyü nəzərə çarpır. Son orta əsrlər mərhələsinin keramika sənəti – ölkənin ayrı-ayrı bölgələrində yaradılan eyni məmulatın forma və bəzədilməsində çeşidlilik, yerli cizgilərin yaranması, dekorativ kompozisiyası və formasının tapılması, ornamentasiyanın ifadəliliyi ilə seçilən əsərlərin yaranması ilə səciyyələnir;

4. keramika sənəti nümunələrinin üzərində həkk olunmuş dekorativ ornamentasiya o dövrdə yaşayan insanların dini təsəvvürləri, dünyabaxışları və qədim Azərbaycan ənənələri haqqında təsəvvürləri çatdırır, yəni məlumat xarakteri daşıyır;

5. yuxarıda təqdim olunan Azərbaycan keramika sənətinin dekorativ tərtibatının təkamülü sübut edir ki, sənəti nəsillikcə ötürülən keramikaçı-rəssamların peşəkarlığı artır və nəsildən-nəslə daha da mükəmməlləşirdi.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı məqalələri dərc olunmuşdu:**

1. Художественные особенности средневековой керамики Шамкира // «Научные исследования в сфере гуманитарных наук: открытия XXI века». Материалы II Международной научно-практической конференции 23-24 апреля 2015 года. Пятигорск 2015. С. 245-249.
2. Средневековая глазурованная керамика из археологических раскопок Габалы// «Вдение Поиск», №3(1)/2015. Казахстан 2015. С.29-32.

3. Orta əsr Azərbaycan memarlığının dekorunda keramikanın yeri// "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Elmi əsərlər", № 20. Bakı 2015. S. 152-156.

4. Orta əsr Azərbaycan keramikasının dekorunun həllində bədii ifadə axtarışları//"Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universiteti. Mədəniyyət dünyası". Bakı 2015. S. 156-161.

5. XII-XIV əsrlər Azərbaycan dulusçuluğunda dekorun bədii həlli //"Bakı Avrasiya Universiteti. Sivilizasiya". 1/2016. S.263-266.

6. Azərbaycanda orta əsrlər keramik məmulatlarının dekorativ tərtibatı (VIII-XI əsrlər). Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi İncəsənət, dil və ədəbiyyat İnstitutu, cild 6, №1. Naxçıvan 2016. S.154-158.

*Гюльнар Мовсум гызы Сеидова*

# ПРИНЦИПЫ РАЗВИТИЯ ДЕКОРА В СРЕДНЕВЕКОВОЙ КЕРАМИКЕ АЗЕРБАЙДЖАНА

Диссертация посвящена принципам развития декоративного убранства средневековой азербайджанской керамики.

Диссертация состоит из введения, трех глав, шести подглав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность исследования, определяется степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**Глава I – «Поиски декора в средневековой азербайджанской керамике»** посвящена исследованию особенностей отображения геометрического и растительного орнамента на глазурованной и неглазурованной керамике исследуемого периода. Определяются художественно-эстетические особенности декора, его место и значение в декоративном оформлении керамики.

**Глава II – «Содержательно-смысловая основа средневековой керамики Азербайджана»** посвящена рассмотрению художественных особенностей сюжетных изображений, рассматриваемые от простого к сложному. Выявляется семантическое значение символики, нашедшей отражение в декоративном убранстве средневековой керамики.

**Глава III – «Художественные особенности керамического декора в средневековой архитектуре Азербайджана»** исследует художественные особенности геометрического и растительного, а также каллиграфического и сюжетного декора керамических плиток, используемых в средневековой архитектуре Азербайджана.

В **Заключении** обобщаются основные выводы исследования.

*Gulnar Movsum Seyidova*

# DECOR DEVELOPMENT PRINCIPLES IN MEDIEVAL CERAMICS OF AZERBAIJAN

The dissertation is devoted to the principles of decoration development of medieval Azerbaijani ceramics.

The dissertation consists of introduction, three chapters, six subchapters, conclusion and list of references. The introduction explains urgency of the research, defines the degree of the issue being examined as well as the objective and tasks, determines the academic novelty, characterizes the major sources, chronological frames and practical significance of the study.

**Chapter I – "Decor search in medieval Azerbaijani ceramics"** is devoted to examination of features of geometrical and floral patterns reflection on glazed and unglazed ceramics of the period in the question. Artistic and esthetic aspects of decor, its place and significance in decorative arrangement of ceramics are being determined.

**Chapter II – "Substantive and semantic basis of medieval ceramics of Azerbaijan"** is devoted to the examination of artistic features of the plot images, considered from simple to complex. The semantic meaning of the symbolism, which is reflected in decoration of medieval ceramics, is being revealed.

**Chapter III – "Artistic features of ceramic decor in the medieval architecture of Azerbaijan"** explores the artistic features of the geometric and floral, as well as calligraphic and plot decor of ceramic tiles used in the medieval architecture of Azerbaijan.

**The conclusion** summarizes the main findings of the study.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

*Əlyazması hüququnda*

**Гюльнар Мовсум гызы Сеидова**

# ПРИНЦИПЫ РАЗВИТИЯ ДЕКОРА
# В СРЕДНЕВЕКОВОЙ КЕРАМИКЕ АЗЕРБАЙДЖАНА

Специальность: 6218.01 – «Декоративно-прикладное искусство»

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**БАКУ – 2017**